# ŞƏRQ RUHUNUN MONUMENTAL TƏCƏSSÜMÜ

*Belarusda yaşayan Kamil Kamalın yaradıcılığı haqqında*



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*



Kamil Kamal

Hazırda Belarus Respublikasında yaşayan Kamil Kamalı Azərbaycanda tanıyanlar azdır. Onların da əksəriyyəti rəssamlıqla bağlı olanlardır. Elə mənim özüm də onu müstəqillik illərindən tanımışam. Əsərləri ilə tanışlıq məndə onu vətəndən uzaqda fəaliyyət göstərən ən istedadlı rəssam və heykəltəraş kimi tanımağıma əsas vermişdir...

Tanışlıq üçün deyək ki, Gürcüstanın Qasımlı kəndində dünyaya göz açıb Bakı, Sankt-Peterburq və Minsk şəhərlərində sənətin sirlərinə yiyələnən Kamil Kamalın (1954) müstəqil yaradıcılığa başlaması SSRİ-nin dağılması ilə üst-üstə düşüb. Bir vaxtlar sovet rəssamlığında yüksək sənətkarlığı ilə ad çıxarmış Y. Moiseyenko, Q. Vaşenko və M.Dansiqdən sənətin sirlərini əxz edən gənc rəssam ötən müddətdə özünü monumental və dəzgah rəngkarlığı və heykəltəraşlığı, eləcə də qrafika sahəsində sınamaqla, bu sənət sahələrinin hər birini yeni çalar və forma-biçimlə zənginləşdirən əsərlər yaratmağa nail olmuş, bununla da mənsub olduğu millətin uzun əsrlər boyu qazandığı bədii-estetik dəyərlər məcmusunun özünəməxsusluğunu başqalarına göstərə bilmişdir...

Kamil Kamalın müxtəlif sənət növlərində yaratdığı əksər əsərlərin ən səciyyəvi cəhəti onların ənənə ilə müasirliyin qovşağını əks etdirməsi, istər rənglərə bələnən, istərsə də bərk materiallarda plastik görkəm alan bu nümunələrin bədii şərhinə, forma-biçiminə görə zamansız qəbul olunmalarıdır. Əgər bu bədii ifadələrin uzaq keçmişlə bağlılığını şərtləndirən detal-atributlar arasında Qədim Şərq incəsənəti və milli miniatür üslubu ənənələri ilə səsləşən məqamlar duyulandırsa, çəkdiklərinin müasirliyini təmin edənlərin məcmusu isə duyulası dərəcədə zəngindir, Belə ki, onun müasirliyinin qaynaqları mütərəqqi XIX-XX əsr dünya təsviri sənətinin ən gözəgörünən və heyrətə səbəb olan bədii prinsiplərindən şirələnib, desək, yanılmarıq. Bu mənada onun dünyanın ən məşhur fırça və tişə ustalarının da münasibət göstərdikləri mövzulara müraciəti də təkrar kimi qəbul olunmamalıdır. Əksinə çoxdan ənənəviləşən mövzulara artıq otuz ilə yaxın bir müddətdə Belarus torpağında yaşayan azərbaycanlı sənətkarın yeni müraciəti çox vaxt onun həzin səslə oxuduğu qəriblik nəğməsi kimi qəbul olunur. Onu narahat edən mövzuları daha çox ekspressiv biçimdə ifadə etməyə üstünlük verən şərqli rəssamın çox vaxt əsərləri koloritinə və bədii təqdimatına görə nisbətən donuq və sakit qəbul olunan şimallı həmkarları arasında çox fərqli görünür. "Mənim ilahəm", "Məhəbbət", "Gömrük", "Şəlalə", "Balıqlar adası", "İlham", "Zərdüştlük şahzadəsi", "Qədim divar rəsmi", "Şərq-Qərb", "Xatirə", "Musiqi", "Midiya hökmdrı", "Nağıl", "Vətən", "Sufilik", "Qızıl balıq", "Hesab", "Monax", "Assuriya" və digər neçə-neçə rəngkarlıq əsərində rəssamın həm gördüklərinə, həm görə bilməsə də oxuduqlarının və təxəyyülünün sayəsində xəyalında canlandıra bildiyi uzaq-yaxın əsrlərin hadisələrinə özünməxsus bədii münasibəti açıq-aydın duyulmaqdadır. Ən başlıcası isə onun müxtəlif mövzulu əsərlərində uzaqla yaxını, çox kiçik görünəni lap böyüklə ruhən birləşdirə bilməsidir. Bütün bunların məcmusunun ona həyatın ən dərin qatlarına belə nüfuz etməyə imkan verib, desək, yanılmarıq. Əslində isə bu tablolar həm də reallıqla irrealığın qovşağından "boylanan" çox tutumlu tarixi-bədii situasiyanın insanı duyğulandıracaq görüntüsüdür. Odur ki, rəssam əbədi mövzulara müraciətində - insanın doğuluşuna və ölümünə, sevgisinə və sevincinə, xeyirə və şərə münasibətində tamaşaçı onun ruhunu tərpədəcək çalarlar tapa bilir. İnsanın istəsə belə qaça bilmədiyi və həyatını təşkil edən bu acılı-şirinli yaşantılar toplusunu və onun sirlərini çox vaxt rəssam özünü və ətrafındakıları əhatə edən çox sadə -adi hadisələrdə aşkarladığından kətan üzərində görünənlər çox cəlbedici olmaqla, həm də bu vaxta qədər görünməz qalmasına və daşıdığı məna tutumuna görə duyulası dərəcədə düşündürücüdürlər. Heç şübhəsiz adilikdən mürəkkəbliyə doğru uzanan bu cür bədii şərhi Kamil Kamalın kompozisiyaya daxil etdiyi hər bir detalı-atributu mənalandırması, rəmzə və məcaza çevirməsi şərtləndirir...

Ümumiyyətlə, yaddaşa müraciət rəssamın çoxsaylı əsərlərinin leytmotivini təşkil edir, desək, həqiqəti söyləmiş olarıq. Bunu onun təhsil sonrası ilk illərdə yaratdığı "Şərq" silsiləsinə daxil olan çoxsaylı rəngkarlıq və qrafika əsərlərində qabarıq duymaq mümkündür. "Doğma şəhərin taleyi", "Gözəl", "Rəssam", "Məğrur şir", "Xeyirxah müdrik qoca", "Dərvişin ehtirası", "Həyat tütəyi", "Mənim uşaqlığımın nağılı", "Atlantida", "Assuriya", "Qədim döyüşçünün maskası", "Şərq əfsanəsi", "Görüş", "Səyahətcil","Haray", "Sərdəba" və s. lövhələrdə rəssamın arzu qanadlarında geriyə dönüşü - sələflərinin əməllərinə saldığı "bədii işıq" nə qədər qürurvericidirsə, onun özü də daxil olmaqla müəyyən məsələlərdə biganəlik nümayiş etdirən müasirlərinə münasibəti kifayət qədər ehyamlı və suallıdır. Bu yerdə yuxarıda adları çəkilən əsərlərdən yalnız birinə - "Doğma şəhərin taleyi" tablosuna şərh verməklə rəssamın həyat hadisələrinə obrazlı-düşündürücü görkəm vermək bacarığını əyaniləşdirmək mümkündür... Əsər Azərbaycanın dilbər guşəsi - Qafqazın konservatoriyası sayılan Şuşaya həsr olunub. Böyük mədəniyyət mərkəzi olan şəhərin işğalından sonra çəkilən əsərdə buludlu səma fonunda görüntüyə gətirilən möhtəşəm qayanın üzərində iki yüklü dəvə təsvir olunub. Baxışları ətrafı ölüm qoxulu dərin dərələrlə əhatə olunmuş qayaüstündən xilas yolu axtaran bu dəvələrin yükü də bu dəfə çox ağır və olduqca qəribədir . Saribansız qalmış dəvələrin yükü bütöv bir şəhərdir...Şuşadır. Etiraf edək ki, bu əsər Azərbaycanda yaradılan və Qarabağ faciəsini obrazlı biçimdə təqdim edən ən dəyərli sənət nümunələrindən sayılmağa layiqdir.

Rəssam tamaşaçısını dialoqa çəkmək istedadını sonrakı illərdə yaratdığı "Dünyanın qurtaracağındakı oyunlar" və "Əbədiyyət" silsiləsində də görmək mümkündür. Bu silsilələri də mövzu baxımından haradasa "Şərq"in davamı hesab etmək olar. "Atıcı","Səfərlər və görüşlər", "Allahların görüşü", "Rəqs","Sehirli ceyran", "Şair", "Səyyahlar", "Qayıqda" və "Mənim ilahəm" əsərlərində Kamil Kamalın təqdim etdiyi süjetlər doğrudan da tamaşaçını suallar məngənəsinə salan, yaddaşı sınağa çəkəndirlər...

Kamil Kamalın kətan və kağız üzərində gerçəkləşən mövzularının bədii şərhindəki möhtəşəmliyin duyulan olmasını yəqin ki, onun hələ sovet Belorusiyasında aldığı təhsil zamanı monumental sənət sənət məkanında yaratdığı iri həcmli diplom işi (Minsk məktəbində divar rəsmi) və sonralar da bu sahədə səmərəli fəaliyyəti (Minskdə "Palset" və "Salomeya" kafelərinin divar rəsmləri və vitrajları) şərtləndirib.

Bu yerdə elə düşünürük ki, biz Kamil Kamalın dəzgah və monumental rəngkarlıqda qazandığı uğurların onu heykəltəraşlığa təhrik etməsinə güclü təsir göstərmişdir, desək, yanılmarıq. Həqiqətən də onun heykəlləri rəssamın rənglə gerçəkləşdirə bilmədiklərinin davamıdır. Onların forma-biçimindəki rəssamlıqdan gəlmə bədii xüsusiyyətlərin qabarıqlığındandır ki, bu heykəllər kifayət qədər çoxçalarlıdırlar, lap əlvan rənglərlə çəkilmiş tabloları kimi... Bu heykəl-kompozisiyaların bir çoxu ölçü etibarilə kətanda gerçəkləşən rəngkarlıq tabloları ilə assosiasiya yaradır, elə onlar kimi rəngarəng, bir çox hallarda isə düşündürücüdürlər. Buna başlıca səbəb heç şübhəsiz müəllifin məlum mövzulara duyulası dərəcədə yeni bədii şərh verə bilməsi, obrazların plastik həllinə özündə bir qədər də müəmmalıq-sirlilik daşıyan nağılvari görkəm bəxş etməsidir.

Kamil Kamalın yaratdığı heykəllərin emalatxana çərçivəsində qalmayıb açıq səmaya çıxarılması, başqa sözlə desək, ictimailəşdirilməsi yəqin ki, onun heykəltəraş istedadına qərib diyarda inamın göstəricisidir. Əgər ona müasir Belorusda iki məşhur həmyerlisinə - iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova və Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirovun şərəfinə ucaldılmış abidələrin (hər ikisi 2009-cu ildə ucaldılıb) müəllifliyinin həvalə edilməsi bu şəxslərin taleyinə ondan yaxın digərinin olmayacağına inamın göstəricidirsə, onun hazırladığı kompozisiyanın Minskin mərkəzi bulvarlarından birində inşa olunan fəvvarənin (2005) əsas elementinə çevrilməsi özünəməxsus sənət duyumunu dəyərləndirmənin ifadəsidir. Rəssam özünün elə üçölçülü görümünün də digərlərindən fərqli olduğunu bu plastika nümunələrində sərgiləməklə, abidələrdə obrazların möhtəşəmliyinə, fəvvarədə isə lirik-psixoloji ovqatı qabarıq göstərməyə nail olmuşdur. Fəvvarənin əsas elementinə çevrilən üçmetrlik tunc kompozisiyada budaqları quşlarla dolu ağac, onun ətəyində fleyta çalan ata və dua edən ana, zirvəsində isə əlindəki quşu uçurmağa hazırlaşan balaca uşaq fiquru heykəltəraş təfsirində-təqdimatında duyulası dərəcədə cəlbedicidir...

Əgər Kamil Kamalın özündə dəzgah və monumental rəngkarlığı, eləcə də qrafika və heykəltəraşlığı əhatə edən yaradıcılığının özünəməxusluğunu səciyyələndirən bədii-estetik məziyyətləri dəyərləndirməli olsaq, onda öncə əsərlərdə gerçəkləşən uzaq-yaxın tarixə köklənmiş müxtəlif mövzulu süjetlərin kolorit, bədii şərh və forma-biçim baxımından özündə ənənə ilə müasirliyin cəlbedici qovşağını cəmləşdirdiyini qeyd etməliyik. Hər bir əsərində özünün xalqının keşməkeşli tarixinə, zəngin folkloruna, qədim ədəbiyyatına və əsrarəngiz musiqisinə bağlılığını nümayiş etdirən Kamil Kamal ruhunda gəzdirdiyi yurda bağlılığını həm də sirr qatına bələnmiş kimi görünən əsərlərində ifadə etməklə, demək olar ki, onların hər birinin düşündürücü yaddaqalanlığını təmin etmişdir. Ona görə də onun zamansızlığa qovuşmuş əsərləri bütün sərgi salonlarında arzulanandır. Bunu onun dünyanın müxtəlif ölkələrində (Almaniya, İtaliya, Türkiyə, Polşa, Belçika, Rusiya, Azərbaycan, Belarus) açılmış fərdi sərgiləri və əsərlərinin İngiltərə, Fransa, Avstriya, Almaniya, Hollandiya, ABŞ, Belçika, Rusiya, Türkiyə və b. dövlətlərdəki nüfuzlu kolleksiyalarını bəzəməsi də təsdiqləyir...

Bu gün Kamil Kamalın ən böyük arzusu Bakıda - soydaşları qarşında fərdi sərgisinin açılmasıdır. Bu yaradıcılıq hesabatının maraqla qarşılanacağı birmənalıdır. Belarusda Azərbaycan adını səmərəli fəaliyyəti ilə şöhrətləndirən rəssam-heykəltəraşın bənzərsizliyi adi gözlə belə görünən əsərləri bunu söyləməyə əsas verir.



Şərq əfsanəsi



Şərq motivi



Mənim müasirim



İrraeal məkan



Ruh qoruyucuları



Doğma şəhərin taleyi